# Qəbələ sosial-iqtisadi inkişaf yollarında

## 2018-ci il yüksək nailiyyətlərlə yekunlaşdırılmışdır

***Fevralın 14-də Qəbələdə 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2019-cu ildə qarşıda duran vəzifələrə həsr olunmuş hesabat iclası keçirilmişdir. Geniş müzakirələrin aparıldığı tədbirdə Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Fəttah Heydərov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Rüfət Əliyev, idarə və müəssisələrin rəhbərləri, icra nümayəndələri, bələdiyyə sədrləri və rayon ictimaiyyətinin təmsilçiləri iştirak etmişlər.***

Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək ulu öndərin xatirəsini ehtiramla yad etmişlər.





Qəbələ Mədəniyyət Mərkəzində davam edən hesabat yığıncağında rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev rayonda 2018-ci ildə sosial-iqtsadi sahədə görülən işlər barədə geniş məruzə etmişdir **(məruzə qəzetin bu nömrəsində dərc edilir).**

Toplantıdakı çıxışında Respublika Ağsaqqallar Şurasının sədri, millət vəkili Fəttah Heydərov əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən rergionların sosial-iqtisadi inkişafı siyasətinin bütün sahələr üzrə geniş vüsət aldığını bildirmişdir. Respublikanın hərtərəfli inkişafından söz açan Milli Məclisin deputatı ölkə başçısının diqqət və qayğısı sayəsində Azərbaycanın hər yerində olduğu kimi Qəbələ rayonunda da geniş abadlıq-quruculuq işlərinin həyata keçirildiyini və 2018-ci ilin qəbələlilər üçün çox uğurlu olduğunu qeyd etmiş, bütün bunların əhalinin sosial vəziyyətinin yaxşılaşmasına xidmət etdiyini vurğulamışdır.

İclasda Prezident Adminstrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Rüfət Əliyev 2018-ci ildə ölkəmizdə sosial-iqtisadi sahədə görülən işlər və qazanılan nailiyyətlər barədə ətraflı məlumat vermişdir.

Sonra Qəbələ rayonu üzrə Maliyyə İdarəsinin rəisi Namiq Ağayev, DSMF-nin Qəbələ Rayon Şöbəsinin müdiri əvəzi Arzu Hacıyev, Vəndam qəsəbə 2 nömrəli tam orta məktəbin müəllimi Yasəmən Qasımova, Qəbələ Rayon Arıçılar Assosiyasiyasının sədri Anar Məmmədov və Mıxlıqovaq kənd sakini Davud Rəsulov çıxış edərək fəaliyyət göstərdikləri sahələrdə 2018-ci ildə əldə olunan uğurlardan, qarşıda duran vəzifələrdən söz açmışlar.

Hesabat iclasında ölkə başçısının tövsiyə və tapşırıqlarına uyğun olaraq qarşıda duran vəzifələrin icrasının təmin olunması üçün müvafiq qərar qəbul edilmiş, yığıncaq iştirakçıları adından Prezident İlham Əliyevə müraciət ünvanlanmışdır.

Sonda rayonun sosial-iqtisadi inkişafında fərqlənən bir qrup şəxsə Fəxri fərmanlar təqdim olunmuşdur.

İclası Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev yekunlaşdırmışdır.

**"Qəbələ"**

## Mirzəbəylilər sabaha daha nikbin baxırlar

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Mirzəbəyli kənd sakinləri ilə görüş-qəbulu keçirilib. Görüşdə rayonun hüquq-mühafizə orqanlarının, əlaqədar xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak ediblər.



Görüşü açan RİH başçısı son illərdə Azərbbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar və layihələr haqqında ətraflı məlumat verib. Qeyd olunub ki, dövlət başçısı tərəfindən həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, bu gün Azərbaycanın hər bir bölgəsində, o cümlədən rayonumuzda geniş abadlıq, quruculuq işləri aparılır.

Yaşayış məntələrinə yeni yollar çəkilir, təhsil, səhiyyə müəssisələri inşa olunur, uşaq bağçaları tikilir, sosial sahələr inkişaf etdirilir.

Bildirilib ki, ölkə başçısı tərəfindən aqrar sektora və özəl sahəyə xüsusi diqqət yetirilir, yeni istehsal və emal müəssisələri yaradılır.

Görülən işlərin, həyata keçirilən tədbirlərin fonunda son illər Mirzəbəyli kəndində də xeyli quruculuq işlərinin aparıldığını qeyd edən RİH başçısı bildirib ki, digər kəndlərimiz kimi Mirzəbəyliyə də qaz xətti, asfalt yol çəkilib, elektrik və su təsərrüfatında yenidənqurma işləri aparılıb. Yaşayış məntəsinin daxili yolları hamarlanıb, kəndin mərkəzindən keçən çayın yatağı qum-çınqıldan təmizlənərək qaydaya salınıb, sahilbərkitmə işləri görülüb. Natiq qeyd edib ki, ölkəmizin elə bir bölgəsi yoxdur ki, orada əhalinin güzəranının yaxşılaşmasına xidmət edən mühüm layihələr həyata keçirilməsin. Bunun nəticəsidir ki, bizim şəhərimizdə, qəsəbə və kəndlərimizdə də belə uğurlu nəticələr özünü göstərir.

Sonra rayonun xidmət təşkilatlarının rəhbərləri ərazidə gördükləri işlərə dair məlumat veriblər.

Görüş-qəbulda iştirak edən kənd sakinləri onlara göstərilən qayğıya görə dövlət başçımız İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Onlar son illər rayonumuzda geniş vüsət alan abadlıq-quruculuq işlərindən Mirzəbəyli kəndinin də qıraqda qalmadığını diqqətə çatdırıblar.



Çıxış edənlərdən Nadir Qaçayev, Firudin Bəkirov, İsmayıl Hüseynov, Zəminə İsmayılova və başqaları məktəb binasının əsaslı təmir olunmasına, köhnəlmiş elektrik dirəklərinin, xətlərinin və transformatorların dəyişdirilməsinə, kəndin mərkəzindən keçən çayın yatağının yenidən qum-çınqıldan təmizlənməsinə və digər problemlərin həllinə köməklik göstərilməsini xahiş ediblər.

Görüşdə Səbuhi Abdullayev sakinlər tərəfindən verilən təkliflərin və qaldırılan məsələlərin həlli istiqamətində aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar verib.

**"Qəbələ"**